Bülleten No: 18 / iyun 2014

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
Məlumat Hesablama Mərkəzi

## Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

İYUN 2014

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



# “Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Mərkəzi icra hakimiyyəti orqanları və digər dövlət qurumları bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahıda nəzərdə tutulan informasiya sistemlərinin və ehtiyatlarının "Elektron hökumət" portalına qoşulması üçün zəruri tədbirlər həyata keçirsinlər.

4. "Elektron hökumət" portalının iştirakçıları portala qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərinin bu qərarın 2-ci hissəsi ilə təsdiq edilmiş Texniki Tələblərə uyğunluğunu təmin etsinlər.

**Artur RASİ-ZADƏ,**
***Azərbaycan Respublikasının Baş naziri***

*1 nömrəli əlavə*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 1 may tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmişdir

## "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının
## SİYAHISI

| Sıra №-si | İnformasiya sisteminin və ehtiyatının adı |
|---|---|
| 1. | 2. |
| | **1. Daxili İşlər Nazirliyi üzrə** |
| 1.1. | "Giriş-çıxış və qeydiyyat" idarələrarası məlumat axtarış sistemi |
| 1.2. | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin Mərkəzi İnformasiya Sistemi |
| | **2. Ədliyyə Nazirliyi üzrə** |
| 2.1. | "Əhalinin Dövlət Reyestri" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi |
| 2.2. | "Notariat Sənədlərinin Elektron Məlumat Bankı" informasiya sistemi |
| 2.3. | "Sahibkarlıq Sahəsində Aparılan Yoxlamaların Vahid Məlumat Reyestri" informasiya sistemi |
| 2.4. | "Qeyri-kommersiya hüquqi şəxslər" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi |
| 2.5. | "Vətəndaşlıq vəziyyəti aktları" avtomatlaşdırılmış qeydiyyat informasiya sistemi |
| 2.6. | "Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestri" informasiya sistemi |
| | **3. İqtisadiyyat və Sənaye Nazirliyi üzrə** |
| 3.1. | İqtisadiyyat və Sənaye Nazirliyinin Vahid Elektron İdarəetmə Sistemi |
| | **4. Vergilər Nazirliyi üzrə** |
| 4.1. | Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi |
| | **5. Energetika Nazirliyi üzrə** |
| 5.1. | Energetika Nazirliyi tərəfindən verilən xüsusi razılıqlar (lisenziyalar) üzrə informasiya ehtiyatı |
| | **6. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə** |
| 6.1. | Ünvanlı sosial yardım alan ailələr üzrə informasiya sistemi |
| 6.2. | Əlilliyi olan şəxslər üzrə informasiya sistemi |
| 6.3. | Sosial müavinət və təqaüdlər üzrə informasiya sistemi |
| 6.4. | Məşğulluq üzrə vakansiya və müavinətlərin informasiya sistemi |
| | **7. Mədəniyyət və Turizm Nazirliyi üzrə** |
| 7.1. | Dövlət rəsm qalereyalarında saxlanılan əsərlərin reyestri |
| 7.2. | CİS naviqasiya sistemi (gomap.az) |
| | **8. Təhsil Nazirliyi üzrə** |
| 8.1. | Milli Təhsil Məlumat Bazası |
| | **9. Səhiyyə Nazirliyi üzrə** |
| 9.1. | Vətəndaşın Elektron Sağlamlıq Kartı Sistemi |
| 9.2. | Tibbi Müayinə Kartı Sistemi |
| 9.3. | Tibb kadrlarının vahid reyestri |
| | **10. Nəqliyyat Nazirliyi üzrə** |
| 10.1. | Nəqliyyat Nazirliyi tərəfindən avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına verilmiş xüsusi razılıqlar (lisenziyalar) |
| | **11. Müdafiə Sənayesi Nazirliyi üzrə** |
| 11.1. | İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazənin verilməsi ilə bağlı informasiya ehtiyatı |

www.e-gov.az

| Sıra №-si | İnformasiya sisteminin və ehtiyatının adı |
|---|---|
| | **12. Kənd Təsərrüfatı Nazirliyi üzrə** |
| 12.1. | Kənd təsərrüfatı subyektlərinin informasiya və monitorinq sistemi |
| 12.2. | Kənd təsərrüfatı məhsulları istehsalçılarının qeydiyyat sistemi |
| | **13. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi üzrə** |
| 13.1. | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən verilən xüsusi razılıq (lisenziya) üzrə informasiya ehtiyatı |
| | **14. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə** |
| 14.1. | Dövlət Komitəsi üzrəRespublikanın müxtəlif regionlarında faktiki məskunlaşan və elektrik enerjisi istehlakçıları olan məcburi köçkünlərin elektron formatda adlı siyahılarından ibarət informasiya ehtiyatı |
| 14.2. | Verilmiş status sənədləri üzrə informasiya ehtiyatı |
| | **15. Dövlət Gömrük Komitəsi üzrə** |
| 15.1. | Gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sistemi |
| | **16. Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi üzrə** |
| 16.1. | Hüquqi və fiziki şəxslərə verilmiş torpaq sahələri üzrə informasiya ehtiyatı |
| | **17. Əmlak Məsələləri Dövlət Komitəsi üzrə** |
| 17.1. | Daşınmaz Əmlakın Qeydiyyatı, Kadastrı və İdarə Edilməsi Sistemi |
| 17.2. | Ünvan Reyestri İnformasiya Sistemi |
| | **18. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi üzrə** |
| 18.1. | Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı |
| 18.2. | Məişət zorakılığı ilə bağlı məlumat bankı |
| | **19. Dövlət Statistika Komitəsi üzrə** |
| 19.1. | Statistik məlumatların buraxılış təqvimi və mətbu məlumatların yayım təqvimi üzrə informasiya ehtiyatı |
| 19.2. | Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələr üzrə informasiya ehtiyatı |
| 19.3. | Statistik məlumatlar (göstəricilər) üzrə informasiya ehtiyatı |
| 19.4. | Statistik nəşrlər (kitablar) üzrə informasiya ehtiyatı |
| | **20. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üzrə** |
| 20.1. | Xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin təsdiqedici sənədlərinin informasiya ehtiyatı |
| 20.2. | Ölçmə vasitələrinin informasiya ehtiyatı |
| 20.3. | Uyğunluq sertifikatları üzrə informasiya ehtiyatı |
| 20.4. | Akkreditasiya olunmuş laboratoriyalar üzrə informasiya ehtiyatı |
| 20.5. | Dövlət standartları üzrə informasiya ehtiyatı |
| 20.6. | İnzibati qərarların informasiya ehtiyatı |
| | **21. Dövlət Sosial Müdafiə Fondu üzrə** |
| 21.1. | Fərdi uçot sistemində sığortaolunanların məlumat bazası |
| 21.2. | Pensiyaçılar üzrə informasiya ehtiyatı |
| | **22. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya üzrə** |
| 22.1. | Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestri |
| | **23. Dövlət Miqrasiya Xidməti üzrə** |
| 23.1. | Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi |
| | **24. Müəllif Hüquqları Agentliyi üzrə** |
| 24.1. | "Qeydiyyat" elektron məlumat bazası |
| | **25. Satınalmalar üzrə Dövlət Agentliyi üzrə** |
| 25.1. | Açıq tender elanları üzrə informasiya ehtiyatı |
| 25.2. | Satınalma müqavilələri üzrə informasiya ehtiyatı |
| 25.3. | Təkliflər sorğusu elanları üzrə informasiya ehtiyatı |
| 25.4. | Kotirovka sorğusu elanları üzrə informasiya ehtiyatı |
| | **26. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi üzrə** |
| 26.1. | Alternativ və bərpa olunan enerji mənbələri üzrə elektron kadastr və məlumatların emalı sistemi |
| | **27. Dövlət Dəniz Administrasiyası üzrə** |
| 27.1. | Azərbaycan Respublikasının Dövlət gəmi və Berbout-çarter Reyestri |
| 27.2. | Dənizçinin şəxsiyyət sənədinin fərdiləşdirilməsi üzrə informasiya sistemi |
| | **28. Dövlət Mülki Aviasiya Administrasiyası üzrə** |
| 28.1. | İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazənin verilməsi ilə bağlı informasiya ehtiyatı |
| 28.2. | Uçuşların yerinə yetirilməsi üçün icazələrin verilməsi ilə bağlı informasiya ehtiyatı |
| | **29. Milli Arxiv İdarəsi üzrə** |
| 29.1. | Elektron arxiv məlumat sistemi |
| | **30. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti üzrə** |
| 30.1. | "Azərsu" ASC-nin Abonent Sistemi və Coğrafi İnformasiya Sistemi |
| | **31. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti üzrə** |
| 31.1. | Enerji Təchizatının Avtomatlaşdırılmış İdarəetmə sistemi |
| | **32. "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyəti üzrə** |
| 32.1. | "Bakıelektrikşəbəkə" ASC-nin abunəçiləri üzrə "Əhali" abunə informasiya bazası |
| | **33. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi üzrə** |
| 33.1. | Qaz abunəçiləri üzrə informasiya ehtiyatı |

*2 nömrəli əlavə*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2014-cü il 1 may tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmişdir

# İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər

1.1. Bu Texniki Tələblər "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Texniki Tələblər dövlət informasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına (bundan sonra - Portal) qoşulması üçün texniki tələbləri və Portala qoşulma ilə bağlı digər qaydaları müəyyən edir.

1.3. Bu Texniki Tələblərdə istifadə olunan anlayışlar Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş mənaları ifadə edir.

**2. İnformasiya sisteminin və ehtiyatlarının Portalla əlaqəli olan komponentlərinə dair tələblər**

2.1. Portal iştirakçısının informasiya sistemlərinin və ehtiyatlarının Portalla əlaqəsi aşağıda göstərilən komponentlərdən təşkil olunur:

2.1.1. təhlükəsizlik serveri;

2.1.2. uyğunlaşdırma (adaptasiya) serveri;

2.1.3. istifadəçi interfeysi;

2.1.4. lokal monitorinq stansiyası.

2.2. Təhlükəsizlik serveri Portal üzərindən aparılan məlumat mübadiləsində vasitəçiliyi həyata keçirməklə aşağıdakıları təmin etməlidir:

2.2.1. göndərilən məlumatların imzalanmasını və alınan məlumatların imzalarının yoxlanılmasını;

2.2.2. onun vasitəsilə ötürülən məlumatların arxivləşdirilməsini;

2.2.3. sorğu verən tərəfin xidmətdən istifadə etmə hüququnun yoxlanılmasını və icazəsiz girişin bloklanmasını;

2.2.4. digər Portal iştirakçılarının təhlükəsizlik serverləri ilə aparılan mübadilə məlumatlarının şifrlənmə vasitəsilə məxfiləşdirilməsini.

2.3. Təhlükəsizlik serveri məlumatları şifrələyib imzalamaq üçün Portalın Sertifikat Mərkəzi tərəfindən Portal iştirakçısına verilmiş sertifikatlardan istifadə etməlidir.

2.4.Uyğunlaşdırma (adaptasiya) serveri sorğuların verilməsini və onlara təqdim edilən cavabların Portalın tələblərinə uyğun formaya çevrilməsini təmin etməlidir.

2.5. İstifadəçi interfeysi Portalın istifadəçisinin hüquqlarının idarə edilməsini təmin etməli və yalnız icazəsi olanlara həmin xidmətlərdən istifadə etmə imkanını yaratmalıdır.

2.6. Lokal monitorinq stansiyası Portalın iştirakçısının təhlükəsizlik serverinin vəziyyətinin izlənilməsini və informasiya sisteminin istifadə edilməsi haqqında statistik məlumatların toplanılmasını həyata keçirməlidir.

2.7. Təhlükəsizlik serveri vasitəsilə ötürülən məlumatlara lokal monitorinq stansiyasının giriş hüquqları və əlçatanlığı olmamalıdır.

2.8. Bu Texniki Tələblərin 2.1-ci bəndində qeyd olunan komponentlər Portalın iştirakçısının daxili şəbəkəsində quraşdırılmalı və onların təhlükəsizliyi şəbəkədaxili sistemlərdə olan təhlükəsizlik səviyyəsindən aşağı olmamalıdır.

**3. Portala qoşulma ilə bağlı inzibati prosedurlar**

3.1. İnformasiya sistemlərinin və ehtiyatlarının Portala qoşulması dövlət və ya qeyri-dövlət qurumlarının bu Texniki Tələblərin 1 nömrəli əlavəsindəki formaya əsasən ərizə ilə operatora müraciəti və onların bu Texniki Tələblərə uyğunluğunun yoxlanılması əsasında həyata keçirilir.

3.2. Müraciət etmiş dövlət və ya qeyri-dövlət qurumunun informasiya sisteminin və informasiya ehtiyatının portala qoşulmasına, ondan istifadə etməsinə və informasiya sisteminin və informasiya ehtiyatının təhlükəsizliyinin təmin edilməsinə dair texniki və texnoloji imkanları 7 (yeddi) iş günü müddətində qanunvericiliyin tələblərinə uyğun qaydada yoxlanılır. Yoxlamanın nəticəsi müsbət olduqda, Portalın operatoru ilə müraciət etmiş qurum arasında Portala qoşulmağa dair müqavilə bağlanılır.

**3.3. Müqavilədə aşağıdakılar əks olunmalıdır:**

3.3.1. Portalın iştirakçısı tərəfindən məlumat mübadiləsinin aparılmasına səlahiyyətli olan vəzifəli şəxslərin siyahısı;

3.3.2. Portalın iştirakçısının informasiya sistemi və informasiya ehtiyatından istifadə etməklə, Portal vasitəsilə təqdim etdiyi elektron xidmətlərin siyahısı;

3.3.3. Portalın iştirakçısının Portal vasitəsilə istifadə etdiyi məlumatların siyahısı;

3.3.4. təhlükəsizlik serverinə məsul şəxs (bundan sonra - server inzibatçısı) haqqında məlumat;

3.3.5. göndərilən elektron sorğularının strukturunun təsviri;

3.3.6. Azərbaycan Respublikasının qanunvericiliyi ilə əldə olunması məhdudlaşdırılan informasiyadan istifadə etmə imkanı və ondan istifadə qaydası;

3.3.7. qarşılıqlı məlumat mübadiləsinin xüsusiyyətlərini əks etdirən əlavə müddəalar.

3.4. Bu Texniki Tələblərə cavab verməyən informasiya sistemlərində və ehtiyatlarında zəruri texniki tədbirlər və təkmilləşdirmələr aparılması üçün Portalın operatoru Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron hökumət" portalı haqqında Əsasnamə" ilə müəyyən olunmuş hərəkətləri həyata keçirməlidir.

3.5.Portalın iştirakçısı təşkilati cəhətdən ləğv edildikdə və hüquqi varisi olmadıqda, onun informasiya sistemi və (və ya) ehtiyatı Portaldan ayrılır.

3.6. Portalın iştirakçısı tərəfindən bu Texniki Tələblərlə və ya qoşulma müqaviləsi ilə müəyyənləşdirilmiş şərtlər pozulduqda, Portalın operatoru şərtlərin pozulmasını əks etdirən yazılı sorğunu Portalın iştirakçısına göndərir. Portalın iştirakçısı sorğunu qəbul etdiyi gündən 1 (bir) ay müddətində pozulmuş şərtlərin aradan qaldırılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsini təmin etməlidir. Pozulmuş şərtlər müəyyən olunmuş müddətdə aradan qaldırılmadığı halda, Portalın iştirakçısının informasiya sistemi və (və ya) informasiya ehtiyatı Portaldan ayrılır.

3.7. Aşağıda qeyd olunan hallar baş verdikdə, Portalın operatoru Portalın iştirakçısının Portal üzərində fəaliyyətini dərhal dayandırmalı (bloklamalı) və bu Texniki Tələblərin 3.6-cı bəndinə uyğun hərəkətləri həyata keçirməlidir:

3.7.1. Portalın iştirakçısı tərəfindən Portalın fəaliyyətini ləngidəcək, ona zərər vura biləcək və ya onun fəaliyyətinin dayanmasına səbəb olacaq hərəkətlərə yol verildikdə;

3.7.2. informasiya təhlükəsizliyinə və ya fərdi məlumatların mühafizəsinə dair tələblər Portalın iştirakçısı tərəfindən pozulduqda.

3.8. Elektron xidmətin Portala qoşulması üçün Portalın iştirakçısı aşağıdakıları həyata keçirməlidir:

www.e-gov.az

3.8.1. elektron xidmətin Portala qoşulması üçün bu Texniki Tələblərin 2 nömrəli əlavəsində göstərilən formada ərizə ilə Portalın operatoruna müraciət etməlidir;

3.8.2. elektron xidmətin yoxlanılması üçün Portalın test mühitinə qoşulmalı və müvafiq xidmətləri test məlumatları ilə birgə təqdim etməlidir;

3.8.3. təhlükəsizlik serverində elektron xidməti və ona müraciət hüquqlarını müəyyənləşdirməlidir;

3.8.4. elektron xidmətin sorğu qeydiyyat jurnalını (loqları) arxivləşdirməli, arxivləşdirilən məlumatların siyahısını və dövrünü müəyyən edən proseduru yaratmalı, həmçinin arxivləşdirilmiş "loq"lara müraciət hüquqları olan şəxsləri və onların müraciət hüquqlarını müəyyənləşdirməlidir.

3.9. Portalın operatoru təqdim edilən elektron xidmətin bu Texniki Tələblərə, həmçinin elektron xidmətin inzibati reqlamentinə uyğunluğunu yoxladıqdan və sınaqdan (testdən) keçirdikdən sonra 7 (yeddi) iş günü müddətində onun Portala qoşulmasını təmin etməlidir.

3.10. Elektron xidmət sınaqdan müvəffəqiyyətlə keçmədikdə, Portalın operatoru bu Texniki Tələblərin 3.4-cü bəndində nəzərdə tutulmuş hərəkətləri həyata keçirməlidir.

3.11. Portal üzərindən göstərilən elektron xidmətin təkmilləşdirilmiş versiyasının Portala qoşulması bu Texniki Tələblərin 3.9-cu bəndinə uyğun olaraq həyata keçirilir.

3.12. Portalın iştirakçısının hazırladığı elektron xidmətin təkmilləşdirilmiş versiyası sınaq (test) zamanı müsbət nəticələr əldə etdikdə, Portalın operatoru tərəfindən elektron xidmət Portala qoşulmalı, həmçinin elektron xidmətin köhnə versiyasının işləmə müddətinin bitməsi və təkmilləşdirilmiş versiyasının təqdim edilməsi barədə Portalın bütün iştirakçıları məlumatlandırılmalıdır.

3.13. Elektron xidmətin Portaldan ayrılması üçün Portalın iştirakçısı elektron xidmətin ayrılma səbəbini bildirən xəbərdarlıq məktubunu Portalın operatoruna göndərməlidir.

3.14. Portalın operatoru elektron xidməti Portaldan ayırmazdan ən azı 1 (bir) ay əvvəl bu barədə fəaliyyəti əsaslandırmaqla istifadəçiləri məlumatlandırmalıdır.

**4. Portala qoşulma ilə əlaqədar Portal iştirakçısının təmin edəcəyi texniki tələblər**

4.1. Portalın iştirakçısı Portala qoşulma ilə əlaqədar aşağıdakı texniki məsələləri həyata keçirməlidir:

4.1.1. informasiya sistemi və ya informasiya ehtiyatı ilə Portal arasında təhlükəsiz rabitə kanalının qanunvericiliyin tələblərinə uyğun təmin edilməsini;

4.1.2. təhlükəsizlik serverinin quraşdırılmasını, onun mərkəzi serverdə qeydiyyatdan keçirilməsini və bu məqsədlə aşağıdakıların icra edilməsini:

4.1.2.1. təhlükəsizlik serverinin əməliyyat sisteminin və onun proqram təminatının quraşdırılmasını;

4.1.2.2. şəbəkə interfeyslərinin konfiqurasiyalarının müəyyənləşdiril-məsini;

4.1.2.3. mərkəzi serverlərin ünvanlarının daxil edilməsini;

4.1.2.4. mərkəzi serverlərin sertifikatlarının və açıq açarlarının daxil edilməsini;

4.1.2.5. Portalın Sertifikasiya Mərkəzinin sertifikatının və açıq açarının daxil edilməsini;

4.1.2.6. təhlükəsizlik serverinin şifrləmə açarlarının generasiya edilməsini;

4.1.2.7. şifrləmə açarının sertifikatına dair sorğunun təşkil edilməsini;

4.1.2.8. təhlükəsizlik serverinin elektron imza açarının generasiya edilməsini;

4.1.2.9. elektron imza açarının sertifikatına dair sorğunun yaradılmasını;

4.1.2.10. generasiya edilmiş açarın Portalın Sertifikasiya Mərkəzinin inzibatçısına təhvil verilməsini;

4.1.3. Portal vasitəsilə sorğu vermək hüququna malik olan şəxslərin və ya vəzifələrin təyin edilməsini;

4.1.4. uyğunlaşdırma (adaptasiya) serverinin yaradılmasını, quraşdırılmasını və bu məqsədlə aşağıdakıların icra olunmasını:

4.1.4.1. əməliyyat sisteminin quraşdırılmasını;

4.1.4.2. veb serverin (web server) yaradılmasını və fəaliyyətə başlaması üçün İİS (Internet Information Services) xidmətinin və əlaqəli paketlərin yüklənilməsini;

4.1.4.3. HTTPS (Hypertext Transfer Protocol Secure) və SSL (Secure Sockets Layer) sertifikatlarının yüklənilməsini;

4.1.4.4. uyğunlaşdırma (adaptasiya) serverinin konfiqurasiya edilməsini və konfiqurasiyanın təhlükəsizlik serverində saxlanılmasını;

4.1.5. informasiya sisteminin və ehtiyatlarının informasiya təhlükəsizliyinin təmin edilməsini;

4.1.6. server inzibatçısının təyin edilməsini.

4.2. Server inzibatçısı uyğunlaşdırma (adaptasiya) serverinin aşağıdakı parametrlərini dəyişdirə bilər:

4.2.1. İP ünvanını;

4.2.2. istifadə etdiyi protokolunu (HTTP və ya HTTPS).

4.3. Elektron xidmətlərin yaradılması və təkmilləşdirilməsi zamanı Portalın iştirakçısı bu Texniki Tələblərin 3 nömrəli əlavəsində göstərilən "İnformasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsinin aparılmasına və elektron xidmətlərin proqram təminatının işlənilməsinə dair Təlimat"a riayət etməlidir.

**5. Sorğulara aid tələblər**

5.1. Portala qoşulmuş informasiya sistemi SOAP (Simple Object Access Protocol) vasitəsilə sorğularla işləmə imkanına malik olmalıdır.

5.2. Sorğuların həcmi 10 kilobaytdan artıq olmamalıdır.

5.3. Sorğunun sistemdən cavablandırılma vaxtı verilənlər bazasında xidmətin emalına və şəbəkə ilə məlumatların ötürülməsinə sərf edilmiş vaxt nəzərə alınmadan 2 (iki) saniyədən artıq olmamalıdır.

5.4. Təhlükəsizlik serveri saniyədə 60 sorğunun emalını təmin etməlidir.

5.5. Məlumatların ötürülməsində 1qiqabit/saniyədən az olmayan ötürmə sürətini dəstəkləyən L2 və daha yüksəksəviyyəli şəbəkə avadanlığı istifadə edilməlidir.

**6. Portala qoşulan informasiya sistemlərində informasiyanın mühafizəsinə dair tələblər**

6.1. Portala qoşulan informasiya sistemlərində informasiyanın mühafizəsi aşağıdakı əsas səviyyələr üzrə təmin olunmalıdır:

6.1.1. işçi yeri;

6.1.2. müəssisənin alt strukturları;

6.1.3. müəssisə.

6.2. Portala qoşulan informasiya sistemlərinin təhlükəsizlik sistemi aşağıdakı səviyyələrdə təyin olunmalıdır:

6.2.1. informasiyanın fiziki qorunması;

6.2.2. əlyetərlilik nəzarəti və fərdi identifikasiya;

6.2.3. məlumatların şifrlənməsi üçün açarlardan istifadə;

6.2.4. "əks-sorğu" müdafiəsi.

6.3. Portalın iştirakçısının Portala müraciəti yalnız Portalın Sertifikasiya Mərkəzi tərəfindən verilmiş sertifikata malik olan təhlükəsizlik serveri vasitəsilə aparılmalıdır. Həmin təhlükəsizlik serverində mübadilə prosesi zamanı məlumatların əvvəlcədən şifrlənməsi, Mərkəz tərəfindən verilmiş sertifikatla həmin server tərəfindən imzalanması və şifrlənmiş qeydiyyat jurnalının aparılması təmin olunmalıdır.

6.4. Portalın iştirakçısının Portala müraciəti zamanı təhlükəsizliyin təmin edilməsi məqsədi ilə Portalın operatoru tərəfindən verilmiş sertifikat əsasında autentifikasiya tətbiq olunmalıdır.

6.5. Autentifikasiya aşağıdakı vasitələrdən biri ilə həyata keçirilməlidir:

6.5.1. gücləndirilmiş elektron imza sertifikatı;

6.5.2. Portalın operatoru tərəfindən istifadəçilərə verilən identifikasiya vasitələri;

6.5.3. mobil autentifikasiya sertifikatı;

6.5.4. QR (Quick Response Code) kodunun oxunması.

6.6. Portala qoşulmuş informasiya sistemləri arasında avtomatik sorğular əsasında aparılan informasiya mübadiləsi zamanı sorğunun təşəbbüskarı olan Portal iştirakçısının məlumat mübadiləsinin aparılması üzrə səlahiyyətli şəxs (şəxslər) elektron xidmət istifadəçisi hesab edilir.

6.7. İnformasiya sisteminə Portal istifadəçisinin müraciət hüquqları Portal iştirakçısı tərəfindən müəyyənləşdirilməlidir.

6.8. Portaldan istifadə prosesində informasiya təhlükəsizliyi ilə bağlı baş verən problemlər haqqında məlumatlar Portalın operatoru tərəfindən qeydə alınmalı və saxlanılmalıdır.

*1 nömrəli əlavə*

"İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"ə

## İnformasiya sistemlərinin və ehtiyatlarının "Elektron hökumət" portalına qoşulması üçün

## Ə R İ Z Ə

**1. İştirakçı haqqında məlumat**

| | | | | |
|---|---|---|---|---|
| İştirakçının adı | | | | |
| İştirakçı haqqında qısa məlumat | VÖEN | | | |
| | | | | |
| İştirakçının statusu | mərkəzi icra hakimiyyəti orqanı | yerli icra hakimiyyəti orqanı | yerli özünüidarəetmə orqanı | digər təşkilat |
| | | | | |
| Hüquqi ünvan | | | | |
| Faktiki ünvan | | | | |
| Qoşulmaq üçün əsas | əsas (hüquqi akt) | digər əsas | qeydlər | |
| | | | | |
| İnformasiya sisteminin tam adı | | | | |
| İnformasiya ehtiyatının (ehtiyatlarının) tam adı | | | | |
| Çıxarışın nömrəsi* | | | | |
| İnformasiya sisteminin qiymətləndirilməsinin aparılmasına dair məlumat | qiymətləndirilmənin aparılma tarixi | | qiymətləndirilmənin nəticəsinə dair rəy** | |
| | ____ ____________ 20 il | | müsbət | mənfi |
| * İnformasiya ehtiyatının dövlət informasiya ehtiyatlarının reyestrində və ya fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrində qeydiyyatı barədə çıxarışın nömrəsi (qanunvericiliklə qeydiyyatı tələb olunduğu təqdirdə). | | | | |
| | | | | |

**Müvafiq cavabın altından xətt çəkin.

**2. Əlaqə məlumatları**

| | Soyadı, adı, atasının adı | İş telefonu | Mobil telefonu | Elektron poçt ünvanı (e-mail) |
|---|---|---|---|---|
| Qoşulma üzrə məsul şəxs | | | | |
| İştirakçının texniki dəstəyinin təmin olunmasında məsul şəxs (ən azı iki nəfər göstərilməlidir) | | | | |
| | | | | |
| | | | | |

**3. Səlahiyyətli vəzifəli şəxs**

| | |
|---|---|
| Soyadı, adı, atasının adı | |
| Vəzifəsi | |
| İmza | |
| | |

Tarix: " " __________ 20

M.Y.

www.e-gov.az

*2 nömrəli əlavə*

"İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"ə

Elektron xidmətin "Elektron hökumət" portalına qoşulması üçün
**ə R İ Z ə**

______________________________________________
*(Portal iştirakçısının adı)*

______________________________________________
*(Portal iştirakçısının informasiya sisteminin adı)*

elektron formada dövlət xidmətlərinin göstərilməsinin təmin edilməsi və dövlət funksiyalarının icrası ilə bağlı

______________________________________________
*(dövlət xidmətlərinin təqdim edilməsini təmin edən müvafiq normativ hüquqi sənədlər barədə məlumat)*

______________________________________________

əsasında xahiş edirəm:

**1.** aşağıda göstərilən elektron xidmətin "Elektron hökumət" portalına qoşulmasına köməklik edəsiniz:

| Sıra №-si | Xidmətin adı | İnzibati reqlament barəsində məlumat* | Xidmətin istismarına cavabdeh şəxs haqqında məlumat | |
|---|---|---|---|---|
| | | | soyadı, adı, atasının adı | əlaqə nömrəsi |
| | | | | |
| | | | | |

*Azərbaycan Respublikası Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi.

**2.** aşağıda göstərilən elektron xidmətin "Elektron hökumət" portalına qoşulmasına köməklik edəsiniz:

______________________________________ elektron poçt ünvanı və
*(elektron poçt ünvanı)*

____________________ telefon nömrəsi vasitəsilə yuxarıda göstərilən elektron xidmətin
*(telefon nömrəsi)*

Portala qoşulması haqqında məlumatlandırasınız.

Səlahiyyətli vəzifəli şəxs __________ ____________________ ____________________
*(imza, tarix)* *№-li nüsxə*

M.Y.

# Bakının enerji operatoru abunəçiləri üçün yeni elektron xidmətlər işə salmağı planlaşdırır

**Göstərilən xidmətlərin səviyyəsinin daha da artırılması məqsədi ilə yaxın günlərdə şəbəkəyə qoşulma, sayğac dəyişmə, texniki şərtin alınması, borcun araşdırılması və s. məsələlər üzrə abonentlərə elektron xidmətlərin göstərilməsinin həyata keçirilməsi nəzərdə tutulur.**

Bu fikir "Bakıelektrikşəbəkə" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayevin məqaləsində əksini tapıb.

Məqalədə, həmçinin qeyd olunur ki, "Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23.05.2011-ci il tarixli Fərmanının icrası ilə əlaqədar olaraq "Bakıelektrikşəbəkə" ASC-nin rəsmi internet saytında abonentlərə göstərilməsi nəzərdə tutulan xidmətlərin növləri, habelə müəssisənin struktur rəhbərlərinin "Əlaqə telefonları", "Elektron müraciət", "Qaynar xətt", "Qəbul günləri", "Enerji haqqının elektron ödənişi", "Borcun öyrənilməsi" və s. başlıqlı səhifələr fəaliyyətdədir. Həmin səhifələrə daxil olan abonentlərin müraciətləri ətraflı araşdırılaraq ən qısa müddətdə cavablandırılır.

# "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

**"Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072, № 12, maddə 1247; 2012, № 1, maddə 40, № 3, maddə 256, № 10, maddə 1016, № 11, maddə 1207; 2013, № 6, maddələr 745, 757, № 7, maddə 868, № 8, maddələr 1005, 1018, № 11, maddə 1466, № 12, maddə 1639; 2014, № 1, maddə 69; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 fevral tarixli 36 nömrəli, 14 fevral tarixli 46 nömrəli, 21 fevral tarixli 52 nömrəli, 12 mart tarixli 74 nömrəli və 19 mart tarixli 86 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 33.2-ci bəndə "icazənin alınması" sözlərindən sonra "(müddətinin uzadılması)" sözləri əlavə edilsin.

**2.** 33.3-cü bənddə "yaşamaq məqsədi ilə (immiqrant statusu almaq üçün) icazənin alınması" sözləri "yaşamaq üçün icazənin alınması (müddətinin uzadılması)" sözləri ilə əvəz edilsin.

**3.** 33.4-cü və 33.5-ci bəndlərdə "Əcnəbinin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi məqsədi ilə fərdi icazənin" sözləri "Əcnəbinin və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin" sözləri ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 33.5-1-ci bənd əlavə edilsin:

33.5-1. Azərbaycan Respublikasında 3 gündən artıq müvəqqəti olan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata alınması üçün müraciətin və sənədlərin qəbulu

**Artur RASİ-ZADƏ,**
***Azərbaycan Respublikasının Baş naziri***
*Bakı şəhəri, 5 may 2014-cü il*

# Əli Abbasov: "Aztəminatlı insanların "Elektron hökumət"ə imkanlı təbəqədən daha çox ehtiyacı vardır."

## Bu sözləri Rabitə və Yüksək Texnologiyalar Naziri Əli Abbasov AzərTAc–a açıqlamasında bildirmişdir.

**- Elektron xidmətlərin genişləndirilməsi, xüsusən də bu xidmətlərin əlçatanlığının təmin edilməsi istiqamətində əsas hədəflər hansılardır?**

- "Elektron hökumət" və elektron xidmətlər yalnız dövlətlə vətəndaş, eyni zamanda, kiçik və orta həcmli müəssisələr arasında rabitə vasitələri deyil, həm də yoxsulluğun və işsizliyin azaldılması üçün real platformalardır. Biz elə etməliyik ki, "Elektron hökumət" xidmətləri xalqın əsasən aztəminatlı təbəqəsinin, azgəlirli insanların evinə gedib çata bilsin. Bu kateqoriyadan olan insanların "Elektron hökumət"ə imkanlı təbəqədən daha çox ehtiyacı vardır. Ölkəmizdə "Elektron hökumət"in hədəflərindən biri də Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, korrupsiya ilə mübarizə aparmaq, bürokratik əngəllərdən qurtulmaq, bütün insanların bu xidmətlərdən yararlanmasını təmin etməkdir. Bir daha qeyd edim ki, bunun üçün ilk növbədə bütün vətəndaşların, əsasən də aztəminatlı insanların bu xidmətlərdən yararlanmasını təmin etməklə gözlənilən nəticələrə nail olmaq mümkündür. Məlum olduğu kimi, informasiya cəmiyyətinin quruculuğu üzrə ikinci strategiya qəbul edilmişdir. Ölkədə 2020-ci ilədək bütün bu xidmətlərin internet vasitəsilə hamı üçün əlçatan olması hədəflənir. Azərbaycanda "Elektron hökumət" proqramı iki istiqamətdə həyata keçirilir. Birincisi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) "Elektron hökumət" portalı vasitəsilə dövlət orqanlarının öz saytlarında yaratdıqları elektron xidmətlərin vahid pəncərə üsulu ilə təqdim olunmasıdır.



Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi 417 xidmətdən artıq 300-dən çoxu elektron formada təqdim edilir və qalan xidmətlərin də tam təqdim olunması əsas məqsədlərimizdəndir.

İkinci məsələ bu xidmətlərin vətəndaş və iş adamlarına, o cümlədən ucqar kənd yerlərində əlçatan olmasını təmin etməkdir. Bu da infrastruktur məsələsidir. İndi ölkəmizdə fiber-optik şəbəkənin qurulması üzrə "Genişzolaqlı İnternetin İnkişafı" layihəsi əsasında işlər davam etdirilir və layihə 2017-ci ildə başa çatacaqdır. 2017-ci ilin sonunadək Azərbaycan əhalisinin 85 faizi, o cümlədən bütün ev təsərrüfatları, işgüzar subyektlər yüksəksürətli, genişzolaqlı internetlə təmin olunacaqdır. Kənd yerlərində son istifadəçiyə verilən internetin sürəti 30, şəhər yerlərində isə 100 meqabit/saniyəyə çatdırılacaqdır.

www.e-gov.az

# Rabitə və Yüksək Texnologiyalar Nazirliyi elektron sənədlərin şifrlənməsi proqramını hazırlayıb




**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Microsoft"-un "Windows" əməliyyat sistemləri üçün nəzərdə tutulmuş yeni E-şifrləyici proqram təminatını hazırlayıb.**

Bu proqramın köməyi ilə informasiyanın təhlükəsiz şəkildə mübadiləsi təmin olunur.

E-şifrləyici proqramı açıq açar kriptoqrafiyasına əsaslanaraq hazırlanıb. Proqram yazılarkən açıq açar kriptoqrafiyasının bir növü olan asimmetrik şifrləmə əməliyyatından istifadə olunub. Asimmetrik şifrləmə prosesi zamanı açar cütündən: açıq açar və gizli açardan istifadə olunur.

Açıq açar vasitəsilə şifrlənən məlumat yalnız həmin açara bağlı olan gizli açar vasitəsilə deşifrlənə bilər. Son zamanlar informasiyanın təhlükəsiz şəkildə ötürülmə problemlərini nəzərə alaraq yaradılan E-şifrləyici proqramı Milli Sertifikat Xidmətləri Mərkəzinin elektron imza sertifikatı ilə imzalanmış sənədlərin mübadiləsini təmin edir.

E-şifrləyici proqramı informasiyanın iki şəxs arasında təhlükəsiz mübadiləsi üçün istifadəyə verilib. Rahat və funksional istifadəyə malik proqram "MS Windows" platformasında istifadə üçün nəzərdə tutulub. E-şifrləyici proqramı "Visual Studio ortamında C#" proqramlaşdırma dilində hazırlanıb. "Microsoft .Net Framework 3.5" və ondan daha yuxarı versiyaları dəstəkləyir. Şifrləmə prosesi AES simmetrik şifrləmə və RSA asimmetrik şifrləmə alqoritmlərindən istifadə ilə həyata keçirilir. İstifadə üçün elektron imza kartı, smart kart oxuyucu və internetə məhdudiyyətsiz çıxış tələb olunur.

E-şifrləyici proqramı elektron imza kartı vasitəsilə açılır. İstənilən şəxsin sertifikatı vasitəsilə şifrlənən imzalanmış sənədi, yalnız həmin şəxsin elektron imza kartı vasitəsilə açmaq mümkündür. Bu, bir daha üçüncü şəxsin sənədə baxa bilməməsini və informasiyanın təhlükəsiz mübadiləsini göstərir. Proqram və onun istifadə təlimatı "www.e-imza.az" saytında verilib.

## Azərbaycanda əmək müqaviləsi bildirişləri üzrə elektron informasiya sisteminin tətbiqinə iyulun 1-dən başlanılacaqdır

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev Prezident İlham Əliyevin ölkədə əmək hüquqları sisteminin inkişafına, işçi hüquqlarının təminatına diqqət və qayğısının bu sahədə islahat tədbirlərinin aparılmasında mühüm əsas olduğunu vurğulamışdır. Nazir müavini "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2013-cü il 27 dekabr tarixli Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli Fərmanına əsasən, əmək müqaviləsi bildirişlərinin "Elektron hökumət" portalı üzərindən elektron informasiya sisteminə (EİS) daxil edilərək qeydiyyata alınması mexanizminin hazırlandığını bildirmişdir.

Qeyd etmişdir ki, əmək müqaviləsi bildirişlərinin elektron şəkildə qeydiyyata alınması üçün elektron informasiya sistemi cari il iyulun 1-dən tətbiq olunacaqdır. EİS-in proqram təminatı artıq hazırdır və yaxın aylarda sistemin tətbiqinə başlanacaq. Bu mexanizm əmək bazarında mövcud münasibətlər sisteminin elektron qaydada hüquqi müstəvidə əhatə olunmasına imkan yaratmaqla, həm işçilərin, həm də biznes strukturlarının əmək bazarında mənafelərini ifadə edəcəkdir.

## Fərdi identifikasiya nömrəsinin daxil edildiyi dövlət informasiya sistemlərinin siyahısında dəyişiklik edilib

Azərbaycan Nazirlər Kabinetinin 127 №-li qərarına əsasən "Azərbaycan Respublikası vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunu apardığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nda dəyişiklik edilib.

Dəyişikliklərə əsasən, qərar "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunu apardığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nın on birinci abzasının ləğv edilməsini nəzərdə tutur.

Beləliklə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi icazələrin reyestrini aparmaq səlahiyyəti ləğv edilib.

## "Mühəndis-axtarış işlərinin yerinə yetirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarından bəzi bəndlər

...

3.7. Mühəndis-axtarış işlərinin yerinə yetirilməsinin nəticəsi olaraq, podratçı hesabatın kağız daşıyıcılarda 4 nüsxəsini hazırlayır. Hesabatın 3 nüsxəsi sifarişçiyə təqdim olunur, 1 arxiv nüsxəsi isə podratçıda saxlanılır. Hesabatın iki nüsxəsi sifarişçiyə elektron formatda təqdim edilməli, bir nüsxəsi isə elektron formatda podratçının arxivində saxlanmalıdır.

3.8. Bu Qaydaların 3.1–3.6-cı bəndlərinə uyğun olaraq yoxlanılmış və şəhərsalma və tikintiyə dair normativ sənədlərə uyğunluğu təsdiq olunmuş mühəndis-axtarış işlərinin nəticələri Mərkəz tərəfindən 10 (on) gün müddətində bir nüsxəsi kağız formasında sifarişçiyə və bir nüsxəsi isə elektron formada Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edilir.

## Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) "Daşınmaz əmlakla bağlı elektron xidmətlər yeni mərhələdə" adlı ictimai təqdimat keçirib

**Təqdimatda komitə tərəfindən göstərilən e-xidmətlərlə əlaqədar cəmiyyətə məlumatlar verilib. Bildirilib ki, yeni elektron xidmətdən istifadə etməklə vətəndaşlar və əmlak sahibləri dövlət reyestrindən məlumatları internet vasitəsilə əldə edəcəklər.**

Komitənin sədr müavini Rafiq Cəlilov deyib ki, e-xidmətlər istifadəçilərə böyük imkanlar yaradır. Onun sözlərinə görə, bundan sonra vətəndaşlar tərəfindən ərazi qeydiyyat idarələrinə ərizələrin yazılması, idarələrə müraciət edilməsinə ehtiyac qalmayacaq:

"İstifadəçi evindən, ofisindən kənara çıxmadan rahat şəkildə sahibi olduğu daşınmaz əmlak barədə dövlət reyestrində qeydiyyata alınmış məlumatlarla tanış olacaq. Bu xidmət əhali, dövlət qurumları, fiziki və hüquqi şəxslər, banklar və digər daşınmaz əmlak sahibləri üçün faydalı olacaq. Elektron xidmətlər sayəsində mülkiyyət sahiblərinin əvvəllər daşınmaz əmlakla bağlı hüquqi əməliyyatlara sərf etdikləri vaxta böyük qənaət olunacaq, vətəndaş-məmur ünsiyyəti azalacaq, qeydiyyat sahəsində şəffaflıq daha da yüksək səviyyədə təmin ediləcək. Eyni zamanda, yeni xidmətlər daşınmaz əmlak bazarının aktivliyini təmin edəcək, alqı-satqı proseslərini stimullaşdıracaq".

ƏMDK-nin 2012-ci ildən elektron xidmətlərin tətbiqinə başladığını önə çəkən R.Cəlilov komitə tərəfindən hazırda 20 interaktiv, 2 informativ e-xidmətin vətəndaş və əmlak sahiblərinin istifadəsinə verildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Onun sözlərinə görə, cari ilin sonuna kimi adıçəkilən komitənin təqdim etdiyi elektron xidmətlərin sayı artırılacaq: "İl ərzində istifadəyə veriləcək xidmətlərə icarə haqqı borcları haqda məlumatların SMS vasitəsilə icarəçiyə göndərilməsi, daşınmaz əmlaka dair xidmət haqqı, mülkiyyətə dair çıxarışın hazır olma tarixi haqda məlumatın SMS vasitəsilə verilməsi, kadastr və texniki məlumatların alınması üçün müraciətlərin elektron qəbulu və başqa xidmətlər olacaq. İndiyə qədər elektron xidmətlər vasitəsilə 51 600 elektron müraciət daxil olub".

## Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) təqdim etdiyi daha 4 elektron xidmət "Elektron hökumət" portalı üzərindən göstəriləcək

"Başa çatdırılmamış tikililər kimi özəlləşdirilən obyektlərin hərracda satışına dair sifarişlərin qəbulu", "Orta və iri dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətlərinin səhmlərinin pul hərracında satışına dair sifarişlərin qəbulu", "Kiçik müəssisələrin (obyektlərin) hərracda satışına dair sifarişlərin qəbulu" və "Yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş istifadədə olmayan qeyri-yaşayış sahələrinin hərracda satışına dair sifarişlərin qəbulu" xidmətləri portala inteqrasiya edilib.

Sözügedən elektron xidmətlər müvafiq olaraq təşkil edilən hərraclarda iştirakçıların qeydiyyata alınması üçün sifarişlərin qəbulu, özəlləşdirmə obyektinin ilkin satış qiymətinin 10 faizi həcmində behin ödənilməsi və hərracda iştirak hüququnun verilməsi barədə bildirişin təqdim edilməsi ilə bağlı qaydaları müəyyən edir.

## Azərbaycanda QHT-lərin işini asanlaşdıracaq elektron məlumat sisteminin təqdimatı keçirilib

**Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr İdarəsinin rəisi Faiq Qurbanov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin "Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 20 noyabr 2013-cü il tarixli Fərmanına əsasən, Ədliyyə Nazirliyi tərəfindən "Fərdi elektron pəncərə" elektron məlumat sistemi yaradılıb: "Bu sistem həm Ədliyyə Nazirliyi ilə QHT-lər arasında əməkdaşlığın gücləndirilməsi baxımından, həm də ümumilikdə böyük imkanlar yaradır. İnanırıq ki, belə bir sistemin yaradılması qarşıda duran hədəflərə çatmaqda, şəffaflığın təmin edilməsində, vətəndaş cəmiyyətinin inkişafı prosesində böyük addım olacaq".**

"Fərdi elektron pəncərə" elektron məlumat sistemi barədə geniş məlumat verən Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat Baş İdarəsinin İnformasiya təminatı şöbəsinin rəisi Ağakərim Səmədzadə elektron məlumat sisteminin strukturu, istifadə qaydaları, interaktiv imkanları və s. barədə danışıb.

O bildirib ki, "Fərdi elektron pəncərə" qeyri-hökumət təşkilatlarının aidiyyəti dövlət orqanı ilə qarşılıqlı məlumat mübadiləsini, qanunla müəyyən edilmiş məlumatların, hesabatların elektron formada verilməsini və digər elektron xidmətlərin həyata keçirilməsini təmin edən informasiya sistemidir.

Şöbə rəisi deyib ki, bu sistemdən istifadə edən hər bir QHT üçün "fərdi elektron kabinet"in yaradılması, QHT-lərin fəaliyyətinə dair sənədlərin elektron formada qəbulu və cavablandırılması, avtomatik ümumiləşdirilməsi və statistik hesabatların hazırlanması, sistemləşdirilmiş şəkildə saxlanılması, qrantların ayrılması və verilməsi ilə bağlı qanunla müəyyən edilmiş sənədlərin elektron qeydə alınması və digər funksiyalar nəzərdə tutulur.

Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinin rəisi İlqar Məmmədov əlavə edib ki, sistemdə məlumatların konfidensiallığı tam qorunacaq. O, qeyd edib ki, QHT-lər sistemin təkmilləşdirilməsi üçün istənilən an təkliflərini verə bilərlər.

QHT-lərə elan edilib ki, bu sistemdən istifadə etmək məqsədilə login və parolun əldə edilməsi üçün qeyri-hökumət təşkilatlarının səlahiyyətli şəxsi Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsi Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti İdarəsinə müraciət etməlidirlər.

QHT-lərə elektron məlumat sistemindən istifadə qaydaları barədə hazırlanmış təlimat təqdim edilərək sistemə qoşulmaya dair izahat da verilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının, Milli QHT Forumunun təmsilçiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri "Fərdi elektron pəncərə" elektron məlumat sisteminin vətəndaş cəmiyyətinin inkişafına, şəffaflığın artırılmasına və QHT-lərlə dövlət orqanları arasında səmərəli qarşılıqlı fəaliyyətə böyük təkan verə biləcəyini qeyd ediblər.

Qeyd edək ki, Azərbaycanda 3 minə yaxın QHT dövlət qeydiyyatına alınıb, 111 qeyri-kommersiya hüquqi şəxsin filial və nümayəndəliyi fəaliyyət göstərir.

www.e-gov.az

# Azərbaycanda tibbi-sosial ekspertiza və əlillərin reabilitasiyası informasiya sisteminin ilkin versiyasının təqdimatı olub



*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində əlilliyin müəyyən olunması sisteminin və əlillik təyinatları ilə bağlı aidiyyəti təşkilatlar arasında məlumat mü badiləsinin tam avtomatlaşdırılması məqsədilə yaradılmış informasiya sisteminin ilkin versiyasının təqdimatı olub.*

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov əlilliyin müəyyən olunması və əlillik təyinatları ilə bağlı aidiyyəti təşkilatlar arasında məlumat mübadiləsi sisteminin tam avtomatlaşdırılmasının nazirliyin əsas fəaliyyət prinsiplərindən biri olduğunu vurğulayıb: "Əsas məqsəd bu sahədə neqativ hallara şərait yaradan məmur-vətəndaş münasibətlərinin aradan qalxmasına, şəffaflığın təmin olunmasına, bununla bərabər, tibbi-sosial ekspertiza xidmətinin müasir tələblərə uyğunlaşdırılmasına xidmət edir".

Nazir bildirib ki, vətəndaşların əlillik vəziyyətinin müəyyən olunması üçün göndəriş formaları (88 nömrəli forma) səhiyyə müəssisələri tərəfindən Tibbi-sosial ekspert komissiyalarına (TSEK) elektron məlumat mübadiləsi sistemi vasitəsilə göndəriləcək. Eyni zamanda əlillik qrupları almaq üçün müraciət edən vətəndaşların xəstəlik vəziyyətləri, müayinələrinin nəticələri barədə məlumatlar TSEK-lər tərəfindən yeni proqram təminatı vasitəsilə elektron yolla informasiya sisteminə daxil ediləcək: "Bununla da əlillik təyinatı barədə aidiyyəti dövlət orqanına təqdim olunmaq üçün vətəndaşlara kağız arayışların verilməsinə artıq ehtiyac qalmayacaq. Çünki vətəndaş TSEK-in əlillik təyinatı barədə məlumatı əks etdirən kağız formasında arayışını hansı təşkilata təqdim etməlidirsə, müvafiq məlumat həmin təşkilata elektron yolla göndəriləcək. Yəni əlillik təyin olunması barədə məlumatların TSEK-lər tərəfindən aidiyyəti orqanlara elektron yolla, həm də operativ şəkildə göndərilməsi təmin olunacaq". Nazir tibbi-sosial ekspertiza xidməti əməkdaşlarına yeni proqram təminatı ilə işləmək bacarıqlarının aşılanması üçün Bakı şəhərində, respublikanın rayon və şəhərlərində treninqlərin keçirildiyini qeyd edib.

Tədbirdə qeyd olunan proqram təminatının ilkin versiyasına dair müzakirələr aparılıb, təkliflər verilib. Verilən tapşırıqlara, səslənən təkliflərə uyğun olaraq proqram təminatının təkmilləşdirilməsi işlərinin qısa vaxtda başa çatdırılması və yeni informasiya sisteminin geniş ictimaiyyətə təqdim olunması nəzərdə tutulur.

# "Elektron hökumət" portalına xaricdə təhsillə bağlı e-xidmət əlavə olunub və xaricdə təhsil üzrə Dövlət Proqramı təqaüdçüləri illik nəticələrinə dair elektron qaydada hesabat təqdim etməklə qeydiyyatdan keçəcəklər

Təhsil Nazirliyinin yeni bir elektron xidməti "Elektron hökumət" (www.e-gov.az) portalına inteqrasiya edilib. Artıq "2007/2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici Ölkələrdə Təhsili üzrə Dövlət Proqramı üçün elektron ərizə" xidməti də portal üzərindən göstəriləcək.

Bu xidmət vasitəsilə gənclər adıçəkilən Dövlət Proqramına elektron qaydada rahat və asan şəkildə müraciət etmək imkanı əldə edirlər.

Məlumat üçün bildirək ki, xidmətdən istifadə zamanı ilk növbədə qeydiyyatdan keçmək tələb olunur. Namizədlər elektron ərizənin doldurulması üçün mütəmadi istifadə etdikləri elektron poçt ilə qeydiyyatdan keçməlidir. Bir elektron poçt ünvanından istifadə edərək yalnız bir dəfə qeydiyyatdan keçmək mümkündür. Elektron ərizənin mövcud vəziyyətinə dair yeniliklər bu ünvana göndəriləcək.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil ilə bağlı aparılan islahatların davamı olaraq Proqram təqaüdçülərinin illik qeydiyyat formasında dəyişiklik edilib. Belə ki, proqram təqaüdçüləri hər tədris ilinin sonunda qeydiyyatdan keçməlidirlər.

Nazirlər Kabinetinin 2008-ci il 27 noyabr tarixli, 261 nömrəli qərarı ilə təsdiq edilmiş Təhsil Nazirliyi ilə Dövlət Proqramı təqaüdçüsü arasında bağlanmış müqavilənin 2.3.6-cı bəndinə uyğun tədris ili bitdikdən sonra 20 (iyirmi) təqvim günü ərzində illik tədrisin nəticələrinə dair rəsmi çıxarışlarla elektron qaydada hesabat təqdim edərək qeydiyyatdan keçəcəklər.

Təhsil Nazirliyindən qeyd edilib ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın icrasının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar gələcəkdə də davam etdiriləcək.

# Alternativ və bərpa olunan enerji mənbələri ilə bağlı elektron xidmətin inzibati reqlamenti təsdiqlənib



**"Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"i təsdiq edilib.**

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyindən verilən məlumata görə, Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestri həmin qərarı qeydiyyata alıb.

Qeyd edək ki, bu xidmət alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazənin verilməsi üçün müraciətin və tələb olunan sənədlərin elektron formada qəbul edilməsini və nəticəsi barədə istifadəçiyə məlumat verilməsini əhatə edir.

# Ev və avtomobil alqı-satqısı ilə bağlı notariusların öhdəliyi artırıldı

**Nazirlər Kabineti "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da dəyişikliklər edib.**

Indiyə qədər notarius daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqaviləni təsdiqlədikdən sonra iki iş günü müddətində həmin müqavilənin bir nüsxəsini sifarişli poçt göndərişi vasitəsi ilə Əmlak Məsələləri Dövlət Komitəsinə göndərirdi.

Dəyişikliyə əsasən, Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sisteminin yaradılması ilə əlaqədar notariusların üzərinə əlavə öhdəlik qoyulub. Notarius daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqaviləni təsdiqlədikdən dərhal sonra onu Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemi vasitəsilə, iki iş günü müddətində isə həmin müqavilənin bir nüsxəsini sifarişli poçt göndərişi vasitəsi ilə Əmlak Məsələləri Dövlət Komitəsinə göndərməlidir. Eyni zamanda bundan sonra nəqliyyat vasitəsinin icarəyə verilməsinə dair müqaviləni, yaxud nəqliyyat vasitəsindən istifadə edilməsi və ya ona dair sərəncam verilməsi hüquqları ilə bağlı etibarnaməni təsdiq edərkən, notarius müqavilənin və ya etibarnamənin təsdiq edilməsi barədə məlumatı dərhal Ədliyyə Nazirliyinin "Notariat Sənədlərinin Elektron Məlumat Bankı"na deyil, "Elektron notariat" informasiya sisteminə daxil etməlidir. Ədliyyə Nazirliyi də artıq "Notariat Sənədlərinin Elektron Məlumat Bankı"na deyil, "Elektron notariat" informasiya sisteminə daxil olmuş məlumatı texniki vasitələrdən istifadə etməklə üç gün müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərəcək.

Bu vaxta qədər müraciət edən şəxsin istəyi ilə notarius daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində hüquq əldə edənin notariat qaydasında təsdiq edilmiş ərizəsini müqavilə, torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə sənəd ilə birlikdə Əmlak Məsələləri Dövlət Komitəsinə göndərib. Dəyişikliyə əsasən bundan sonra müraciət edən şəxsin istəyi ilə notarius daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində hüquq əldə edənin notariat qaydasında təsdiq edilmiş ərizəsinin müqavilə, torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə sənəd ilə birlikdə "Elektron notariat" informasiya sistemi vasitəsilə ərizənin təsdiq edildiyi gün, iki iş günü müddətində isə həmin sənədləri sifarişli poçt göndərişi vasitəsilə Əmlak Məsələləri Dövlət Komitəsinə göndərəcək. Eyni zamanda həmin ərizənin surəti müqavilənin notariat qaydasında təsdiqlənməsi haqqında müraciət edən şəxsə veriləcək.

Təlimata edilən əlavəyə əsasən bundan sonra notariat hərəkətlərinin aparılmasından əvvəl notarius "Elektron notariat" informasiya sistemi vasitəsilə əqdlərin, o cümlədən etibarnamələrin və vəsiyyətnamələrin təsdiqi və ya ləğv edilməsi, habelə vərəsəlik işinin açılıb-açılmaması, mülkiyyət və vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilib-verilməməsi barədə müvafiq məlumatları yoxlamalıdır. "Elektron notariat" informasiya sistemi vasitəsilə Ədliyyə Nazirliyi ilə notariat kontorları arasında yazışmalar da aparılacaq.

# Kənd Təsərrüfatı Nazirliyi internet resursu vasitəsilə şəffaflığı təmin edir və aqro-parklar yaradılır

**"Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 16-da imzaladığı fərmana müvafiq olaraq Kənd Təsərrüfatı Nazirliyinə ölkədə aqro-parkların yaradılması tapşırığı verilib. Bununla bağlı nazirlik tərəfindən beynəlxalq təcrübə araşdırılır və təkliflərimizi yaxın zamanda hökumətə təqdim edəcəyik".**

Bunu Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev söyləyib.

Nazir müavini hesab edir ki, ən qabaqcıl ölkələrdə olan aqro-parkların yaradılması ölkəmizdə də təmin olunacaq. Fermerlər üçün kooperativlərin yaradılması məsələsinə gəlincə, nazir müavini deyib ki, bununla bağlı təkliflər planı hökumətə təqdim edilib:

"Fermerlərə hansısa subsidiyaların verilməsi ilə onlarda iqtisadi maraq artırılmalıdır. Bununla da, fermerləri bu maraqlar ətrafında birləşdirərək onları iri təsərrüfatların yaradılmasına cəlb etmək lazımdır. Hesab edirəm ki, kooperativlərin yaradılması həm məhsuldarlığın artmasına, həm də problemlərin birgə aradan qaldırılmasına kömək edəcək".

Nazir müavini elektron kənd təsərrüfatının yaradılması ilə bağlı görülən işlərə də münasibət bildirib:

"Azərbaycanda elektron kənd təsərrüfatının yaradılması ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi üçün seminarlar keçirilir. Hesab edirəm ki, həm bitkiçilik, həm də heyvandarlıq sahəsində elektron hökumətin yaradılması təmin ediləcək. Bu, kənd təsərrüfatının idarə edilməsinə də öz töhfəsini verəcək".




Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən geni dəyişdirilmiş məhsulların ölkəmizə gətirilməsi də tənzimlənir. Aidiyyatı qurumlar tərəfindən onların ölkəmizə gətirilməsi məhdudlaşdırılır. Nazirlik ölkədə ekoloji təmiz kənd təsərrüfatı məhsulu istehsalına nail olmağa çalışır.

Kənd təsərrüfatı məhsullarının istehsalçılarının siyahıları və onlara hər hektar buğda və çəltik səpininə görə əlavə 40 manat hesabı ilə dövlət büdcəsinin vəsaiti hesabına veriləcək yardım haqqında məlumatlar Kənd Təsərrüfatı Nazirliyinin (KTN) rəsmi saytında (www.agro.gov.az) yerləşdirilib. Bu şəffaflığın tam təmin edilməsi məqsədi daşıyır. Mülkiyyətçilər saytın "Subsidiyalar" bölməsində məlumatlarla tanış ola bilərlər.

www.e-gov.az

## 01.05.2014 – 31.05.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 54123 |
| 2 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 12418 |
| 3 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 4390 |
| 4 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 3413 |
| 5 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2655 |
| 6 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1947 |
| 7 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1648 |
| 8 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 1249 |
| 9 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 977 |
| 10 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 665 |
| 11 | FİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 645 |
| 12 | Vətəndaşın fərdi məlumatları barədə arayış | RYTN | 621 |
| 13 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 537 |
| 14 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 506 |
| 15 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 408 |
| 16 | Cari ay ərzində aparılmış şəhərlərarası və beynəlxalq danışıqlar üzrə məlumat | RYTN | 386 |
| 17 | Su borcunun internet vasitəsilə öyrənilməsi | "Azərsu" ASC | 378 |
| 18 | İnformasiya sistemləri, informasiya ehtiyatları və elektron xidmətlərlə bağlı dövlət orqanları tərəfindən təqdim olunan layihələrə (təkliflərə) rəy verilməsi üçün müraciətin və sənədlərin qəbulu | ASAN xidmət | 363 |
| 19 | Yeni telefon çəkilişi | RYTN | 362 |
| 20 | Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbul edilməsi | Əmlak Məsələləri Dövlət Komitəsi | 359 |

## 01.06.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 59 | 137 | 196 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.05.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12924 | 907 | 5167 | 18998 |

## 2014-cü ilin may ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 2 | 6 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 10 |
| 3 | Energetika Nazirliyi | 4 | 6 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 2 |
| 5 | Xarici İşlər Nazirliyi | 1 | 3 |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 7 |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 4 | 13 |
| 8 | Dövlət Gömrük Komitəsi | 3 | 142 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 15 | 27759 |
| 10 | Dövlət Statistika Komitəsi | 2 | 23 |
| 11 | Vergilər Nazirliyi | 11 | 915 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 850 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 6 | 9 |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 1 | 1 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 22 | 472 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 1 | 2 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | 1 | 4 |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 5 | 5 |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 10 | 121 |
| 21 | Dövlət Dəniz Administrasiyasi | 4 | 14 |
| 22 | Təhsil Nazirliyi | 1 | 206 |
| 23 | Gənclər və İdman Nazirliyi | 4 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 21 | 3295 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 15 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | 4 | 7 |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 5 | 939 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 29 | Daxili İşlər Nazirliyi | 2 | 531 |
| 30 | Dövlət Sərhəd Xidməti | - | - |
| 31 | Müəllif Hüquqları Agentliyi | 3 | 5 |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 363 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 191 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 35 | "AzərEnerji" ASC | 1 | 4 |
| 36 | "AzərSu" ASC | 1 | 378 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 86 |
| 38 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 35 | 61916 |
| 39 | Baş prokurorluq | 1 | 3 |
| **CƏMİ** | | **199** | **98312** |

www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.06.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 36 | 44 | 48 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 1 | 0 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 2 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 30 | 30 | 32 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 10 | 28 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 13 | 21 | 22 | 14 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 1 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 14 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 8 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 37-1 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | – | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | – | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | – | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | – | 0 | 6 | 9 | 0 |
| 45 | "Elektron hökumət" portalı | | | 2 | | |
| 46 | Baş Prokurorluq | | | 1 | 1 | |
| | **CƏMİ:** | **428** | **256** | **330** | **462** | **362** |

# "Elektron hökumət" portalına daxil olanların sayı 360 403 nəfərə çatdı



ŞƏKİL 1

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin may ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 670 139 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 360 403 nəfər olub. Belə ki, 360 403 nəfər ümumən 670 139 dəfə portala baxıb və 1 182 764 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 2 389 608 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 05 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 54%-ni yeni istifadəçilər, 46%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün aprel ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 47 061 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 25 187 nəfər olub. Həmin şəxslər 172 688 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 98 312 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 38 saniyə təşkil edib. May ayı ərzində portala müraciət edənlərin 60.3%-ni yeni istifadəçilər, 39.7%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 116 849-a çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 330 ədəd olub.



ŞƏKİL 2

© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az